

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 205 (21.106)

*28 oktyabr 2014-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### *Rəsmi xronika*

Oktyabrın 27-də Parisdə, Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü olub.

Sarayın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Fransa Prezidenti Fransua Olland Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Enerji, aerokosmik sənaye, hərbi-texniki, təhsil, metro inşaatı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi. "Cənub" dəhlizi enerji layihəsinin reallaşması ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların vəziyyəti, münaqişənin beynəlxalq hüquq normalarına əsasən, bununla bağlı indiyədək qəbul edilmiş sənədlərə uyğun ədalətli həlli ətrafında fikir mübadiləsi aparıldı. Münaqişə ilə bağlı status-kvonun dəyişilməsinin, işğal olunmuş ərazilərin azad edilməsinin zəruriliyi vurğulandı.



## Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir

Təhsil islahatları muxtar respublikada həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsidir. Son illər bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində yüzlərlə məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Ardıcıl xarakter alan bu quruculuq prosesi Şahbuz rayonunu da əhatə etmişdir.

Oktyabrın 27-də Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə məktəbin direktoru Əvəz Həsənov çıxış edərək demişdir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində ən müasir məktəb binaları tikilib istifadəyə verilir. Təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilir, pulsuz dərsliklərlə təmin olunur, pedaqoji kollektivin fəaliyyəti üçün hərtərəfli şərait yaradılır. Müasir məktəb binasının tikilib istifadəyə verilməsinin "Muxtariyyət ili"ndə onlar üçün ən qiymətli hədiyyə olduğunu bildirən Əvəz Həsənov kollektiv adından minnətdarlıq etmiş, gənclərin yaxşı təhsil alması üçün bundan sonra da səylə çalışacaqlarını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: "Ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlər müstəqil Azərbaycanın gələcəyinə xidmət edir. Hər bir ölkənin gələcəyinin necə olacağını görmək üçün, ilk növbədə, onun gəncliyinə nəzər salmaq lazımdır. Təhsilli, vətənpərvər, intellektli və müasir dünyagörüşlü gənclər isə məktəblərdə yetişir. Bu məsələnin vacibliyini nəzərə alan ümummilli liderimiz Heydər Əliyev istər ötən əsrin 70-ci illərində, istərsə də müstəqillik dövründə təhsilin inkişafına xüsusi diqqət yetirmiş, ölkəmizdə təhsil infrastrukturu müasirləşdirilmiş, Azərbaycanın gələcəyinə xidmət edən təhsil strategiyası müəyyənləşdirilmişdir. Dahi şəxsiyyət təhsilin cəmiyyətdəki rolunu yüksək qiymətləndirərək demişdir: ***"Cəmiyyətdə hər şey məktəbdən, təhsildən başlanır"***.



Ali Məclisin Sədri demişdir: "Müasir dövrdə cəmiyyətin tərəqqisi təhsilin inkişafı ilə sıx bağlıdır. O ölkələr gələcəyi olan ölkə hesab olunur ki, orada vətənpərvər və təhsilli gənc nəsil yetişir. Ona görə də pedaqoji kollektivlərin üzərinə mühüm vəzifələr düşür. Müəllimlər tələbkar olmalı, gənclərin təhsilli və vətənpərvər ruhda tərbiyə olunmalarına diqqəti artırmalıdırlar. Şagirdlər yaradılan şəraitdən səmərəli istifadə etməli, vətənpərvər və çalışqan olmalı, bunu tədrisdə qazandıqları nailiyyətlərlə sübut etməlidirlər. Ölkəmizdə bu vəzifələri yerinə yetirmək üçün hər cür şərait yaradılmışdır. Hər bir müasir avadanlıqlarla təmin olunmuş məktəb binaları tikilərək istifadəyə verilir. Bütün bunlar isə ulu öndərimizin təhsil sahəsində qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir".





Ali Məclisin Sədri demişdir: "Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin nailiyyətləri nümunə gücündədir. Məktəbin qazandığı bu uğurlar tədrisin düzgün qurulması, nizam-intizamın və tələbkarlığın yüksək səviyyədə olmasının nəticəsidir. Kollektiv bundan sonra da qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməli, məktəbdə tədrisin səviyyəsi daha da yüksəldilməlidir".

Ali Məclisin Sədri qazanılan uğurlara görə məktəbin kollektivinə təşəkkürünü bildirmiş, Şahbuz rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan bir qrup şagirdə kompüter dəsti hədiyyə etmişdir.

Sonra Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, sinif otaqlarında və fənn kabinələrində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, məktəb binası 216 şagird yerlikdir. Üçmərtəbəli təhsil ocağında 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Üç minə yaxın dərslik və bədii ədəbiyyat fondu olan kitabxanada internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkündür.

Kompüter otağında hər biri internetə qoşulmuş 19 kompüter dəsti vardır. Məktəbdə yaradılan fənn laboratoriyaları da müasir tədris-təcrübə avadanlıqları ilə təmin edilmişdir. Fizika laboratoriyasında quraşdırılan elektron lövhə dərslərin və təcrübə məşğələlərinin müasir metodlar səviyyəsində keçilməsinə şərait yaradacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 avqust tarixli Sərəncamına əsasən, görkəmli pedaqoq, şair Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illik yubileyi muxtar respublikada silsilə tədbirlərlə qeyd olunur, görkəmli ədibin maarifçilik ideyaları geniş təbliğ olunur. Məktəbin elektron lövhəli sinfində muxtar respublikanın distant tədris şəbəkəsinə qoşulmuş 97 ümumtəhsil məktəbi ilə Ədəbiyyat Muzeyi arasında videobağlantı qurulmuş, "Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı" mövzusunda dərs tədris olunmuşdur.

*Ardı 2-ci səhifədə*




Bu il məktəbin 1-ci sinfinə 15 şagird qəbul olunmuşdur. Ali Məclisin Sədri məktəbə ilk dəfə qədəm qoyan birinci sinif şagirdlərinin tədris prosesi ilə maraqlanmışdır.

Baxış zamanı qeyd olunmuşdur ki, təhsil sahəsinə göstərilən diqqət və qayğı bu məktəbin də uğurlu nəticələr əldə etməsinə səbəb olmuşdur. Məktəbin məzunlarından 7-si ali məktəblərə, 1 şagird 9-cu sinif bazasından orta ixtisas məktəbinə qəbul olunmuşdur. Tələbə adını qazanan məzunlardan 4-ü 500-700 intervalında bal toplamışdır. Yaradılan müasir şərait tədrisin səmərəli təşkilinə və daha böyük uğurların qazanılmasına imkan verəcəkdir.

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdəki şahmat sinfi lazımi avadanlıqlarla təmin olunmuşdur. Bildirilmişdir ki, “2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı”na əsasən, muxtar respublikada da bu istiqamətdə ardıcıl tədbirlər görülür, şəhər və rayon mərkəzlərində yeni şahmat məktəbləri tikilərək istifadəyə verilir. Artıq muxtar respublikanın ümumtəhsil məktəblərində şagirdlərin əqli inkişafı və asudə vaxtlarının səmərəli təşkili məqsədilə “şahmat” fənni tədris olunur.

Gələcəyimiz olan uşaqların bilikli, zəngin dünyagörüşünə malik olması ilə yanaşı, onların fiziki sağlamlığının qorunması və vətənpərvər ruhda böyüməsi də bu gün ümumtəhsil məktəbləri qarşısında duran ən mühüm vəzifələrdəndir. Buna görə də məktəbdə geniş idman zalı və hər cür ləvazimatlarla təchiz olunan hərbi kabinə istifadəyə verilmişdir.

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdə şagirdlərin qədim adət-ənənələrimizə və milli dəyərlərimizə sadiq ruhda böyüdülməsi diqqət mərkəzində saxlanılır. “Əmək təlimi” dərslərində qızlara tikmə və toxuculuq sənətinin sirləri öyrədilir.

Pedaqoji kollektivlə görüşən Ali Məclisin Sədri demişdir ki, ölkənin tərəqqisi təhsildən, məktəbin inkişafı isə müəllimlərin fəaliyyətindən asılıdır. Yaradılan şərait məktəbdə tədrisin günün tələbləri səviyyəsində qurulmasına imkan verəcəkdir. Şahbuz şəhər 2 nömrəli tam orta məktəb uğurlu nailiyyətləri ilə seçilir. Kollektiv öz fəaliyyətini gələcəkdə daha da artırmalı, gələcəyimiz olan gənc nəslin əsl vətəndaş kimi yetişdirilməsinə səy göstərməlidir.

Məktəbin müəllimi Rauf Bağırov demişdir ki, təhsil o zaman inkişaf edir ki, ona dövlət qayğısı göstərilir. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda müasir təhsil infrastrukturu yaradılmışdır. İstər şəhər və rayon mərkəzlərində, istərsə də ən ucqar dağ kəndlərində yeni məktəb binaları tikilərək istifadəyə verilir. Bütün bunlar da müəllimləri daha səylə işləməyə, intellektli, vətənpərvər və yüksək təhsilli gənclər yetişdirməyə ruhlandırır.

Məktəb binasının həyətində də abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır.

## Şahbuz şəhərində dövlət qurumları yeni binada fəaliyyət göstərəcəkdir





Şahbuz şəhəri bu gün füsunkar təbiəti və gözəl havası ilə yanaşı, həm də müasir şəhərsalma infrastrukturu ilə diqqəti cəlb edir. Son illər aparılan quruculuq tədbirləri, istifadəyə verilən yeni sosial obyektlər və inzibati binalar rayon mərkəzi olan Şahbuz şəhərinin müasir şəhərsalma prinsiplərinə uyğun qurulmasına səbəb olmuşdur.




Oktyabrın 27-də Şahbuz Şəhər Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət binada rabitə evi, kitabxana, polis sahə məntəqəsi, Yeni Azərbaycan Partiyası Şahbuz şəhər ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə və klub fəaliyyət göstərəcəkdir.

Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün otaqlarda nümunəvi iş şəraiti yaradılmışdır. Baxış zamanı Ali Məclisin Sədri Şahbuz şəhərinin abadlaşmasında inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyənin üzərinə mühüm vəzifələr düşdüyünü bildirmiş, qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıqla bağlı müvafiq tapşırıqlar vermişdir.

Rabitə evində 512 yerlik 2 nömrəli ATS quraşdırılmışdır. Poçt bölməsində də lazımi şərait yaradılmışdır.

Mərkəzdə 6 min 558 kitab fonduna malik kitabxana və 55 yerlik iclas zalı vardır. Yeni Azərbaycan Partiyası Şahbuz şəhər ərazi ilk təşkilatı üçün ayrılmış iş otağı mərkəzin ikinci mərtəbəsində yerləşir. Məlumat verilmişdir ki, ərazi ilk təşkilatının 409 üzvü vardır. Onlardan 144-ü gənclər, 225-i isə qadınlardır.

Binada Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Şahbuz Rayon Şöbəsi üçün də iş otaqları ayrılmışdır.

Ali Məclisin Sədri bina ilə tanışlıqdan sonra Şahbuz şəhər sakinləri ilə görüşmüşdür.

Şahbuz şəhər sakini Xanlar Səfərəliyev demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin davam etdirilməsi ölkəmizi inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Muxtar respublikamızda da bu işlər uğurla həyata keçirilir. Bütün yaşayış məntəqələri müasir görkəmi ilə seçilir. Dağlar qoynunda yerləşən Şahbuz rayonuna da bu inkişafdan pay düşmüşdür. İstər ucqar dağ kəndlərində, istərsə də rayon mərkəzi olan Şahbuz şəhərində insanların yaşaması, işləməsi üçün bütün şərait vardır. Hər il istifadəyə verilən yeni sosial obyektlər, çəkilən yollar, açılan iş yerləri insanların torpağa bağlılığını, onların qurub-yaratmaq əzmini daha da artırır. Xanlar Səfərəliyev sakinlər adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri həyata keçirilən quruculuq işləri münasibətilə sakinləri təbrik etmiş, görülən bu işləri ölkəmizin iqtisadi qüdrətinin və mövcud sabitliyin nəticəsi kimi dəyərləndirərək demişdir:

*Ardı 3-cü səhifədə*

"2007-ci ildə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şahbuz qəsəbəsinə şəhər statusunun verilməsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, rayon mərkəzinə şəhər statusu verilmişdir. Bu dövrdən başlayaraq burada kompleks quruculuq işləri aparılmış, şəhərin ərazisi genişləndirilmişdir. Dəniz səviyyəsindən 1355 metr yüksəklikdə yerləşən Şahbuz şəhərində əməkhaqqına əlavə 10 faiz ödənilir. Aparılan quruculuq işləri şəhərə müasir görkəm verməklə yanaşı, həm də əhalinin rahat yaşayışına xidmət edir. Bu gün şəhərdə yeni məktəb binası, dövlət strukturları üçün müasir bina istifadəyə verildi. Hazırda şəhərdə içməli su və kanalizasiya sistemləri də yenidən qurulur. Bütün bunlar sakinlərin problemlərinin vaxtlı-vaxtında həllinə, eləcə də onların asudə vaxtlarının səmərəli təşkilinə imkan verəcəkdir. Sakinlər də yaradılanların qədrini bilməli, gənc nəslin dövlətimizə sədaqət ruhunda böyüməsinə diqqəti artırmalıdırlar".

* * *



Həmin gün Ali Məclisin Sədri Şahbuz şəhərində aparılan abadlıq işləri ilə də maraqlanmışdır.

Məlumat verilmişdir ki, şəhərdə geniş quruculuq işləri aparılmış, yol infrastrukturu tamamilə yenilənmiş, şəhərdaxili 2 kilometr yola yeni asfalt örtük salınmışdır. Həmçinin yol üzərindəki körpü genişləndirilərək təmir olunmuş, 3 suötürücü tikilmişdir. Şəhərdə 3 min 800 metr fiber-optik kabel, 3 min metr məsafədə elektrik xətti, 180 metr yeraltı kabel çəkilmiş, müasir işıqlandırma sistemi qurulmuşdur. Bundan başqa, 120 metr uzunluğunda müxtəlif diametrli qaz xətlərinin yeri dəyişdirilmiş, yeni tikililərə 460 metr uzunluğunda qaz xətti çəkilmişdir.

Ali Məclisin Sədri şəhərdə abadlıq və yaşıllaşdırma işlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada "Muzey günləri" davam etdirilir

*Muxtar respublikada mərkəzi icra hakimiyyəti orqanları üçün "Muzey günləri" tərtib olunmuşdur. "Muzey günləri"ndə mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları Naxçıvan şəhərindəki muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar. Bu tədbirin keçirilməsində məqsəd muxtar respublikada fəaliyyət göstərən muzeylərlə ictimaiyyət arasında əlaqənin möhkəmləndirilməsindən, görkəmli şəxsiyyətlərimiz, qədim tariximiz və zəngin mədəni irsimiz haqqında kollektivləri məlumatlandırmaqdan ibarətdir.*

Oktyabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində mühüm addımlar atılmış, mədəni irsimizin qorunması məqsədilə əhəmiyyətli tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı xalçaçılıq sənətinin qorunmasına və inkişafına hərtərəfli şərait yaratmışdır. Həmçinin muxtar respublikada xalçaçılıq sənətinin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına



stimul vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin olunmuş, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulmuşdur. Hazırda muzeydə 3246 eksponat var. Burada Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində də müəyyən tədbirlər görülür.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində, Dövlət Gömrük Komitəsinin və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivləri Heydər Əliyev Muzeyində, Milli Təhlükəsizlik Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivləri Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, Ali Məhkəmənin və Daxili İşlər Nazirliyinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, İqtisadiyyat və Sənaye, Nəqliyyat nazirliklərinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Maliyyə və Vergilər nazirliklərinin kollektivləri isə Açıq Səma Altında Muzeydə olmuşlar.

**"Şərq qapısı"**

*Dövlət proqramı icra olunur*

## Məşğulluq səviyyəsinin yüksəldilməsi əhalinin rifahının yaxşılaşmasına şərait yaradır

***Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların mərkəzində insan amili, əhalinin məşğulluğunun və rifahının yüksəldilməsi dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu mənada mühüm əhəmiyyət daşıyır. Ötən dövr ərzində proqramın uğurlu icrası işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaratmışdır.***

2014-cü ilin ötən 9 ayında dövlət proqramının icrası ilə bağlı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Statistika Komitəsi ilə birlikdə muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparmışdır. Boş iş yerləri haqqında məlumatların toplanması mütəmadi nəzarətdə saxlanılmış, ümumilikdə, 332 müəssisədə sorğular keçirilmişdir. Bu dövr ərzində muxtar respublikanın əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi üçün də müvafiq işlər görülmüşdür. Belə ki, yanvarın 29-da "Naxçıvan Biznes Mərkəzi" MMC-də işəgötürənlərlə görüş keçirilmiş, əcnəbi işçilərə olan tələbatın yerli əmək ehtiyatları hesabına ödənilməsinin, yerli əmək ehtiyatlarından istifadə edilməsinin zəruriliyi və əmək bazarının tələbinə uyğun təşkil olunacaq peşə kursları barədə məlumatlar verilmişdir. Əlavə olaraq, Dövlət Miqrasiya Xidməti tərəfindən cari ilin may və avqust aylarında muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə əmək miqrasiyası sahəsində maarifləndirici görüşlər keçirilmişdir.

Proqrama əsasən, aktiv məşğulluq tədbirləri üzrə də müvafiq işlər görülmüş, ötən dövr ərzində məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 2 min 142 işaxtaran müvafiq müəssisələrdə mövcud olan vakansiyalar üzrə işə düzəldilmiş, 244 nəfər haqqödənilən ictimai işlərə cəlb edilmişdir. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə keçirilmiş əmək yarmarkalarında isə 747 işaxtaran vətəndaş işlə təmin olunmuşdur. Bundan əlavə, keçirilən təhsil yarmarkasında 93, səhiyyə yarmarkasında isə 11 nəfər peşə və ixtisasına uyğun münasib işlə təmin olunmuşdur.

Gənclərin mövsümü və haqqı ödənilən ictimai işlərə göndərilməsi məqsədilə müvafiq dövr ərzində "Naxçıvan Dəmir Yolları" MMC-yə 9, Dövlət Energetika Agentliyinə 5, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 7 nəfər olmaqla, 21 tələbə-gənc ixtisasyönümlü işlərə göndərilmişdir. Bununla yanaşı, Naxçıvan Dövlət Universitetində təhsil alan 2 əcnəbi və 5 yerli tələbə müvəqqəti işlə təmin olunmuşdur.

Kiçik və orta sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması, təsərrüfat sahələrinin genişləndirilməsi, fərdi biznes mühitinin formalaşdırılması da əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində müstəsna rola malikdir. Buna görə də muxtar respublikada bu sahəyə dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilmiş, ötən 9 ayda 41 milyon 636 min manat, o cümlədən Sahibkarlığa Kömək Fondu tərəfindən 2 milyon 530 min manat güzəştli şərtlərlə kreditlər verilmişdir. Sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün müvafiq kursların keçilməsi, həmçinin məsləhət xidmətlərinin göstərilməsi məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyində yaradılmış "Operativ əlaqə sistemi" vasitəsilə sahibkarlıq subyektlərinə mütəmadi olaraq məsləhət, informasiya xidmətləri göstərilmişdir. Həmçinin "Naxçıvan Biznes Mərkəzi" MMC-də sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün "Öz biznesinə başla" adı ilə keçilən tədris kursunda 15 nəfər iştirak etmişdir. Həmin mərkəz tərəfindən müvafiq dövr ərzində 13 sahibkarlıq subyektinə şifahi konsaltinq xidməti göstərilmiş, 17 müəssisəyə mütəmadi olaraq 68 halda iqtisadiyönümlü məlumatlar çatdırılmışdır.

Əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili də diqqət mərkəzində saxlanılır. Bu məqsədlə 2014-cü ilin müvafiq dövründə muxtar respublikanın əmək bazarının tələbləri nəzərə alınaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzində "traktorçu-maşınçı", "xalçaçı", "dərzi", "misgər", "qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər", "kinooperator", "televiziya rejissorluğu", "teleaparıcı", "elektrik montyoru", "ofisiant", "aşpaz köməkçisi", "bərbər", "qadın bərbəri", "ağac üzərində oyma", "kabel lehimləyicisi və elektrik montyoru" və "qazanxana maşinisti" üzrə peşə kursları təşkil edilmiş, kursları 216 müdavim bitirmişdir. Həmin dövrdə Təhsil Nazirliyinin tabeliyində olan peşə məktəblərində isə əmək bazarına uyğun olaraq, "arıçılıq", "kənd elektrikləşməsində elektrik montyoru", "qaynaqçı", "sürücü", "traktorçu-maşınçı", "qaz təsərrüfatı avadanlıqları üzrə çilingər", "kompüter istifadəçisi", "rabitəçi", "mühasibatlıq", "əməliyyatçı mühasib", "elektrik qaz qaynaqçısı", "tikiş avadanlıqlarının operatoru-tikişçi", "kommersiya agenti", "meyvə-tərəvəz ustası" və "inşaat rəngsazı" üzrə peşə kursları təşkil edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən aidiyyəti dövlət orqanları ilə birlikdə xidmət sahələrində, o cümlədən məişət, iaşə, istehsal, ticarət və təhsil sahələrində işləyən işçilər üçün peşə standartlarının tətbiq edilməsi üzrə 16 seminar keçirilmişdir.

İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən təhsil müəssisələrinin kollektivləri, eləcə də ictimai iaşə obyektlərində çalışan işçilər üçün vahid geyim formaları tətbiq olunmuşdur. Təhsil müəssisələrində fəaliyyət göstərən xidmət sahələrində işləyən işçilər üçün "İctimai iaşə obyektlərinin fəaliyyətlərinə dair Tələblər" hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş, ötən dövr ərzində tələblərin icrasına nəzarət üçün mütəmadi olaraq monitorinqlər aparılmışdır. "Naxçıvan Biznes Mərkəzi" MMC-də ictimai iaşə obyektlərində çalışan 20, pərakəndə satış mağazalarında xidmət edən 42 işçi müvafiq tədris kurslarına cəlb edilmiş, xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə yeni kursların bundan sonra da təşkili nəzərdə tutulmuşdur.

Müvafiq dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində və Şərur Peşə Liseyində əmək bazarının tələbinə uyğun milli və xalq tətbiqi sənəti növləri üzrə peşə hazırlığı kursları təşkil olunmuş, "Naxçıvan Biznes Mərkəzi" MMC-nin nəzdindəki "Xalq Yaradıcılıq Emalatxanası"nda ağac üzərində oyma, rəssamlıq, dekorativ-tətbiqi sənət növləri üzrə sahələrin fəaliyyəti davam etdirilmişdir. Hazırda "Dizayn Holdinq" Şirkətlər İttifaqının nəzdində mis üzərində döymə və ağac üzərində oyma sənətləri üzrə kurslar davam etdirilir.

Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğunun təmin olunması da dövlət proqramının əsas tələblərindən biridir. Ötən dövr ərzində bu istiqamətdə də bir sıra işlər görülmüş, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dövlət və özəl müəssisələrdə işlə təmin olunması üçün 88 nəfər kvota yerlərinə işə göndərilmişdir.

*Ardı 4-cü səhifədə*

Məşğulluqlarının təmin edilməsi məqsədilə aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş və sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin Naxçıvan Şəhər Tədris-Ticarət Mərkəzində rəsm və əl işlərinin satışı təşkil edilmişdir. Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində cəza çəkən məhkumlar tərəfindən ümumi dəyəri 2 min 640 manat olmaqla, 51 rəsm və əl işinin satışı həyata keçirilmişdir. Bundan başqa, evlərdə xalça toxunuşu ənənəsinin davam etdirilməsi üçün sosial qayğıya ehtiyacı olan 27 şəxs "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı haqqıödənilən ictimai işlərə cəlb edilmişdir. İlkin olaraq, evlərdə toxunan ümumi dəyəri 2 min 450 manat həcmində 12 xalçanın satışı təşkil edilmişdir. Həmçinin müvəqqəti məşğulluqlarının təmin edilməsi məqsədilə sağlamlıq imkanları məhdud 24 qadınla corab toxunması üçün müqavilələr bağlanmış, ötən dövr ərzində toxunmuş 1349 cüt yun corab hərbi hissələrə təhvil verilmişdir.

Müvafiq dövr ərzində ünvanlı dövlət sosial yardımı almaq üçün rayon və şəhər Əhalinin Sosial Müdafiəsi mərkəzlərinə müraciət edən aztəminatlı ailələrin əmək qabiliyyətli 132 üzvü və hazırda ünvanlı dövlət sosial yardımı ödənişi həyata keçirilən aztəminatlı ailələrin əmək qabiliyyətli 7 üzvü münasib işlə təmin olunmuşdur.

Sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədilə bu dövr ərzində məhdud fiziki imkanlı 21 nəfər peşə kurslarına cəlb edilmiş, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində "misgər" və "kompüter istifadəçisi" peşə hazırlığı kursu təşkil edilmişdir. Proqramın icrası istiqamətində banklar, həmçinin İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin, sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə güzəştli şərtlərlə kiçikhəcmli kreditlərin verilməsi də nəzərdə tutulmuşdur.

İşaxtaran vətəndaşların işlə təmin olunması ilə yanaşı, onların əmək hüquqlarının müdafiəsi də qarşıda duran əsas vəzifələrdir. Dövlət proqramında öz əksini tapmış bu vacib məsələnin nəzarətdə saxlanması məqsədilə aid orqanlar qarşısına konkret tapşırıqlar qoyulmuşdur. Qeyd olunan tapşırıqlarla əlaqədar qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsinə nəzarət məqsədilə müvafiq dövr ərzində, ümumilikdə, 214 sahibkarlıq obyektində 176 halda yeni əmək müqaviləsinin bağlanılmasına, 373 halda isə əməkhaqların real göstərilməsinə nail olunmuşdur. Əmək müqaviləsinin bağlanmamasına görə 3 fiziki şəxsə 3 min manat məbləğində cərimə tətbiq olunmuşdur. Həmçinin əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunmasına nəzarət zamanı fərdi və kollektiv mühafizə vasitələrindən istifadə edilməməsi səbəbindən 50 işçi tikinti sahəsindən uzaqlaşdırılmış, 110 işçi həmin vasitələrlə yerində təmin edilmişdir. Bu sahədə aşkar olunan nöqsanların aradan qaldırılması məqsədilə icrası məcburi olan göstərişlər verilmiş, əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə 3 vəzifəli şəxsə 3 min manat məbləğində cərimə tətbiq edilmişdir.

Müvafiq dövr ərzində 531 müəssisədə işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanmasına nail olunmuşdur. Çalışdıqları iş yerlərində əməkçi miqrantların müvafiq statusa və fərdi icazələrə malik olmalarının araşdırılması, onların əmək fəaliyyətlərinin qanuniliyinə nəzarət edilməsi məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən 2014-cü ilin ötən 9 ayı ərzində muxtar respublika ərazisində fəaliyyət göstərən tikinti, emal və digər sahələrdə çalışan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iş icazələrinə malik olmaları, habelə iş icazələrində nəzərdə tutulmuş vəzifələr üzrə işləmələri, iş icazələrinin qüvvədəolma qaydaları araşdırılmışdır. Araşdırmalar zamanı qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 10 əcnəbi aşkar olunmuş, onlar haqqında Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati tənbeh tədbirləri tətbiq edilmişdir. Bundan başqa, bu dövr ərzində yaşayış məntəqələrində əmək miqrasiyası sahəsində maarifləndirmə və profilaktika tədbirləri həyata keçirilmişdir.

Məşğulluq tədbirlərinin, o cümlədən peşə hazırlığı, haqqıödənilən ictimai işlər, vakansiyalar və işəgötürənlərin işçi qüvvəsinə olan tələbləri barədə məlumatların işaxtaranlara çatdırılması məqsədilə internet saytı ***(isaxtar.nmr.az)*** hazırlanmışdır. Həmçinin işaxtaranların təşkil olunacaq peşə kurslarına təşviq edilməsi üçün kütləvi informasiya vasitələrində mütəmadi olaraq elanların verilməsi təmin edilir. Bu da işaxtaranların təşkil olunacaq peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatlandırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

***2014-cü ilin doqquz ayı ərzində dövlət proqramının icrası ilə bağlı həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikada işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əsaslı zəmin yaranmışdır. Dövlət proqramında nəzərdə tutulmuş tapşırıqların icrası bundan sonra da davam etdiriləcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Dövlət qulluqçusu olmaq istəyənlər imtahan veriblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında VI-VII təsnifatlara uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 15 sentyabr 2014-cü il tarixdə müsabiqə elan edilib.

Komissiyadan verilən məlumata görə, müsabiqəyə 40 dövlət orqanı üzrə 342 vakant vəzifə çıxarılıb. Bu vəzifələrdən 67-si VI təsnifat, 273-ü VII təsnifat üzrə, 2-si isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına vakant vəzifələrdir. Müsabiqəyə sənəd qəbulu 15 oktyabr 2014-cü il tarixədək davam edib, 439 nəfər qeydiyyatdan keçib. Bu namizədlərdən 245-i inzibati vəzifələrin VI, 184-ü VII təsnifatlarına uyğun, 10 nəfər isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında vakant yerləri tutmaq üçün sənəd verib.

Oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada müsabiqənin test imtahanlarına başlanılıb. Naxçıvan Muxtar Respublikası Təhsil, İqtisadiyyat və Sənaye nazirlikləri, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Televiziya və Radio Şurası üzrə vakant vəzifələrin tutulması üçün qeydiyyatdan keçən namizədlər test imtahanı veriblər. Test imtahanları komissiyanın test mərkəzində hər gün iki seansda olmaqla elektron formada keçirilir. İmtahanda namizədlərə 40 qanunvericilik, 30 məntiqi təfəkkür, 15 kompüter bilikləri və 15 ümumi dünyagörüşü haqqında biliklər olmaqla, 100 sual təqdim edilib.

Test imtahanlarında müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsinə buraxılacaqlar. Məlumat üçün qeyd edək ki, imtahanın nəticələri komissiyanın ***dqmk.nmr.az*** saytında yerləşdirilib.

✍ Səbuhi HƏSƏNOV

## İdmançılarımız tibbi yoxlamadan keçiriliblər

***Muxtar respublikada idmanın kütləviliyinə nail olmaq, müxtəlif idman növlərinin inkişafını təmin etmək, gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq məqsədilə həyata keçirilən tədbirlər davamlı xarakter alıb.***

Bu isə naxçıvanlı gənclərin fiziki cəhətdən sağlam böyüməl추 lərində, onların ölkə və beynəlxalq səviyyəli idman yarışlarında muxtar respublikanı uğurla təmsil etmələrində başlıca stimula çevrilib.

Həyata keçirilən tədbirlər çərçivəsində idmançıların tibbi yoxlamalara cəlb olunması da mühüm yer tutur. Növbəti belə aksiya 20-24 oktyabr 2014-cü il tarixlərində keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman və Səhiyyə nazirliklərinin iş planına əsasən, muxtar respublikadakı olimpiya-idman komplekslərində və idman obyektlərində idmanla məşğul olanlar tibbi yoxlamaya cəlb ediliblər. Məqsəd idmançıların sağlamlığının təmin olunması və havaların soyuması ilə əlaqədar infeksion xəstəliklərə qarşı qabaqlayıcı tədbirlərin görülməsi, müayinələrin aparılması idi. Yoxlama zamanı idmançılarımızın səhhətlərində heç bir ciddi qüsur aşkar edilməyib.

## Azərbaycan çempionatında növbəti uğur

Naxçıvan idmançılarının ölkə daxilində qazandığı uğurlara daha biri əlavə olunub. Belə ki, oktyabrın 22-də Qəbələdə start götürən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Azərbaycan çempionatının final mərhələsinə dünən yekun vurulub. Ölkənin müxtəlif bölgələrindən 14 komandanın mübarizə apardığı çempionatda muxtar respublikanı Şərur şəhər 2 nömrəli tam orta məktəbin komandası təmsil edib. Muxtar respublika çempionu Azərbaycan birinciliyində də uğurlu çıxışı ilə yadda qalıb.

Final mərhələsinə ciddi hazırlaşan məktəblilərimiz çempionatı üçüncü pillədə başa vurublar. Şərur şəhər 2 nömrəli tam orta məktəbin komandası yalnız Bakı və Sumqayıt məktəblilərindən geri qalıb.

Yarışın son günündə qalib komandalara Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən kubok və diplomlar təqdim olunub.

✍ Ceyhun MƏMMƏDOV

***Naxçıvan Özəl Universitetində Qafqaz Universitetinin Layihələr şöbəsinin müdiri Üzeyir Bağırovun təqdimatında ENOTES TEMPUS proqramı çərçivəsində Avropa Kompüter İstifadəçi Sertifikatı (ECDL) layihəsinin tanışlıq mərasimi olmuşdur.*** Layihə vasitəsilə ölkənin ali təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları bacarıqlarının inkişaf etdirilməsi və bununla milli təhsil sisteminin təkmilləşdirilməsi, təlim-tədris prosesində müasir metodlardan istifadə və informasiya-kommunikasiya texnologiyaları biliklərində beynəlxalq standartların tətbiqi qarşıya məqsəd qoyulmuşdur.

## ECDL layihəsi ilə tanışlıq mərasimi olub

Universitetin tədris və elmi işlər üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada elmin, təhsilin inkişafına göstərilən yüksək qayğıdan danışmış, Naxçıvan Özəl Universitetinin keçdiyi inkişaf yolu, eləcə də genişlənməkdə olan beynəlxalq əlaqələri barədə geniş məlumat vermişdir.

Qafqaz Universitetinin Layihələr şöbəsinin müdiri Üzeyir Bağırov çıxış edərək ENOTES TEMPUS layihəsi və ECDL təlim kursları haqqında danışmışdır. Qeyd olunmuşdur ki, ECDL (European Computer Driving Lisence) kompüter biliklərini ölçən beynəlxalq sertifikat proqramıdır. TEMPUS proqramı tərəfindən maliyyələşdirilən və Qafqaz Universitetinin koordinatoru olduğu layihənin əsas məqsədi ECDL milli test mərkəzlərinin əməkdaş universitetlərdə qurulmasını təşkil etmək. O da vurğulanmışdır ki, ENOTES layihəsi üç il ərzində ölkənin müxtəlif bölgələrindəki ali təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə edərək müasir təlim metodları ilə tədris aparılması, ali təhsil müəssisələrində İKT təlimlərinin və tədris materiallarının tərtibini və nəşrini Avropa standartlarına uyğunlaşdırmağı, ali məktəblərdə verilən xidmətlərin keyfiyyətini artırmağı, müasir metodlardan istifadə etməklə tədqiqatlara dəstək verməyi, universitetlərdə akademik və inzibati kadr potensialının yaxşılaşdırılmasını nəzərdə tutur.

Məlumat üçün qeyd edək ki, layihə ilə tanışlıq Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda da təşkil edilmişdir.

**Nuray ƏSGƏROVA**

## 2014-2015-ci tədris ilinin ilk sınaq imtahanı

Oktyabr ayının 26-da "İstedad – XXI əsr" MMC muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında ümumi test-sınaq imtahanı keçirib. Ənənəvi olaraq təşkil edilən belə imtahanlarda məqsəd şagirdlərin biliyinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlar səhər saat $10^{00}$-da başlayıb və üç saat davam edib. Sual kitabçasında şagirdlərə hər qrup üzrə 5 fənnə aid 125 sual təqdim olunub. Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb. Qeyd edək ki, muxtar respublika üzrə test-sınaq imtahanlarında 8050 şagird iştirak edib.

Məlumat üçün bildirək ki, ilk dəfə olaraq test-sınaq imtahanında şagirdlərə iş nömrəsi verilib və kodlaşma aparılıb. Həmin iş nömrəsi vasitəsilə şagirdlər imtahan-nəticə vərəqlərini ***www.istedad21.com*** saytından öyrənə bilərlər.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi, bina 41, mənzil 43-də yaşayan Şahverdiyev Məmməd Səttar oğlunun adına olan 8832 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 908